# ŞƏHİD MAYORUN XATİRƏSİ ANILIB




**Masallı Rayon İcra Hakimiyyətinin rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər, müharibə iştirakçıları daim diqqətdə saxlanılır, şəhid ailələri, əlillər, müharibə veteranları ilə görüşlər keçirilir, onların qayğı və çətinlikləri ilə maraqlanır, şəhidlərin uyuduqları qəbiristanlıqlara baş çəkilərək məzarları ziyarət edilir. Şəhid məzarları önündə onların ailə üzvləri, yerli ərazi nümayəndəlikləri, bələdiyyə və ictimaiyyət nümayəndələrinin, din xadimləri və sakinlərin iştirakı ilə anım mərasimləri keçirilir, şəhidlərin parlaq xatirələri ehtiramla yad olunur.**

Tovuz döyüşləri zamanı şəhidlik zirvəsinə ucalmış mayor Anar Novruzovun Ərkivan qəsəbə qəbiristanlığında məzarı ziyarət edilib. Tədbirdə rayon icra hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri, kursant yoldaşları, zabit dostları, rayon ictimaiyyətinin nümayəndələri, qəsəbə sakinləri iştirak ediblər.

Mərasimdə şəhidin ömür yolundan, Milli Ordu sıralarında nümunəvi, şərəfli xidmətindən söhbət açılıb. Onun peşəkar hərbçi, "Akula" ləqəbli kəşfiyyatçı, "AQS-17"nin atası" kimi ad-san, nüfuz qazandığı, əfsanəvi "Mixaylo" kimi düşmənə qənim kəsildiyi qeyd olunub. Müdafiə Nazirliyi tərəfindən "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli Silahlı Qüvvələrin yubiley medalları, Fəxri fərman və təşəkkürnamələrlə təltif edilib. Prezident İlham Əliyevin Sərəncamı ilə vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə, səmərəli fəaliyyətinə, yüksək peşəkarlığına və xüsusi nailiyyətlərinə görə Anar Gülverdi oğlu Novruzov ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb. Ərkivan qəsəbəsindəki küçələrdən birinə şəhidin adı verilib. Ata ocağındakı evinin qarşısında büstü qoyulub, haqqında kitab yazılıb, sənədli film çəkilib.

Rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov mərasimdə çıxış edərək Tovuz döyüşlərinin şanlı qələbəyə, böyük zəfərə aparan yolun başlanğıcı olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Vətən müharibəsinin bəşər tarixində analoqu olmayan misilsiz savaş olduğunu, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 günə torpaqlarımızın işğaldan azad edildiyini, 23 saatlıq antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğunu vurğulayıb. Bu gün Anar Novruzovla yanaşı, bütün şəhidlərimizin unudulmaz xatirələrini böyük ehtiramla yad edirik. Anar təkcə Novruzovlar ailəsinin, Masallının deyil, xalqımızın ləyaqətli övladı, fəxridir. Şəhidlər heç vaxt unudulmamalı, qəhrəmanlıqlarla dolu döyüş yolu daim təbliğ olunmalıdır.

Tədbirdə istefada olan zabit Pərviz Salayev Anarın Vətən sevgisindən, Aprel və Tovuz döyüşlərində göstərdiyi şücaətlərdən danışıb. Qardaşı Sücəddin Novruzov ailələrinə göstərilən yüksək diqqət və davamlı qayğıya görə Azərbaycan Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Tədbir iştirakçıları şəhidin məzarı önünə gül dəstələri düzərək parlaq xatirəsini ehtiramla yad ediblər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**